**UOT: 069.**

**Günay Verdiyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: verdizadegny@gmail.com**

# MUZEYİN SOSİAL-MƏDƏNİ FUNKSİYALARININ MÜASİR TRANSFORMASİYALARI

**Xülasə:** Məqalədə muzeyin sosial mədəni potensialını, muzey mühitində dəyişikliklərə səbəb olan əsas istiqamətlər, həmçinin muzeyin sosial-mədəni qurum kimi funksiyalarının tranformasiyaları haqqında fikir bildirilib. Muzey mühüm ictimai müəssisədir, bura müxtəlif fikirlərin, müxtəlif baxışların, mədəniyyətin simvolu olan sosial mədəni məna ilə müəyyən edilir.

**Açar sözlər**: muzey, muzeyşünaslıq, sosial-mədəni adaptasiya, əlilliyi olan şəxslər, transformasiyalar.

Muzey – sosial əhəmiyyətli vəzifələri həll etməyə qadir olan çoxfunksiyalı mədəniyyət müəssisəsidir. XX əsrin sonu – XXI əsrin əvvəllərindən muzeylər missiyasını əhəmiyyətli dərəcədə inkişaf etdirərək dövrün yeni ehtiyaclarını ödəməyə çalışır və müxtəlif sosial təbəqələrin maraqlarını nəzərə alaraq hər kəsə düzgün informasiya çatdıran sosial mədəni adaptasiya mexanizmlərinə çevrilir. Cəmiyyət və insan üçün mədəni təcrübənin nəsillərə ötürülməsi, innovasiyaların mədəniyyət sisteminə daxil edilməsi, o cümlədən ənənələrə münasibətin formalaşdırılması, köhnəni yenidən düşünmək və yeni dəyər münasibətlərinə yiyələnməyə ehtiyac qalmaqdadır (1; s.54).

Muzeylər sosial mədəni bir qurum kimi ənənəvi mədəniyyət standartlarını saxlamalı, humanist dəyərləri və müasir dünyagörüşlərini cəmiyyətə ötürməlidir. XX əsrin ortalarından başlayaraq elmi texniki inqilab müasir cəmiyyətin strukturunun dəyişməsinə gətirib çıxardı. Tədqiqatçılar bu yeni sosial quruluşu “informasiya cəmiyyəti” adlandırır. Onların fikrincə, informasiyanın yüksək rolu olan iqtisadi, texniki və sosial innovasiyaların yüksək inkişaf sürəti informasiya cəmiyyətinin formalaşmasına gətirib çıxardı. İnformasiya inqilabının və qloballaşmanın baş verdiyi dünyada muzeylərin də inkişafı və dövrün müasir tələblərinə cavab verməsi labüddür. Hazırda müşahidə edirik ki, muzeylər sosial

mədəni institutlar kimi fəaliyyət göstərir, muzeydə artıq müasir kompüter texnologiyalarından istifadə olunur.

Mədəniyyət fərqlidir, müxtəlif struktur elementləri olan mürəkkəb bir sistemdir. Mədəniyyətin struktur elementlərinin və sferalarının müəyyən edilməsinin aktuallığı muzey reallığının strukturlaşmasını dərk etmək ehtiyacı ilə müəyyən edilir. Mədəniyyət sosial hadisədir, yəni onun bütün sahələrini əhatə edən insan fəaliyyətinin sosial-mədəni sahəsinə daxil olması deməkdir. Muzeydə qabarıq şəkildə təqdim olunan ənənəvi məişət mədəniyyətinin diferensiallaşdırılmasının tətbiqi mənası budur.

Muzeylərin sosial mədəni potensialı yüksəkdir. Buradakı "sosial-mədəni" termini muzeyin cəmiyyət və mədəniyyətlə qarşılıqlı əlaqəsini göstərir və muzey sosial mədəni qurum kimi hazırda əsasən mədəniyyətşünaslıq və muzeyşünaslıq kateqoriyası kimi nəzərdən keçirilir. Muzeylər sosial-mədəni yaddaşın saxlandığı və ötürüldüyü, adət-ənənələrin və mədəni dəyərlərin qorunduğu sosial institutlar olmasına baxmayaraq, ən çətin informasiya transformasiyasını yaşayırlar (2; s.12). Muzeylərdən başqa bura digər mədəni mərkəz olan kitabxana və arxivlər də daxildir.

Müasir cəmiyyətdə muzeyin sosial-mədəni fəaliyyəti şəraitində baş verən dəyişikliklər "muzey sosial-mədəni institut kimi" anlayışının semantik məzmununun və onun sosial mədəni reallığını dərk edilməsinin dərinləşdirilməsi üçün metodoloji potensialının öyrənilməsinin davam etdirilməsi vacibdir.

Mədəni irsi müasir sosial-mədəni proseslərlə əlaqələndirərək yeniləyən muzey – muzey kommunikasiyasının innovativ texnologiyalarından istifadə edir, ənənəvi iş formalarını dəyişdirir, tamaşaçılara maarifləndirici və istirahət xidmətlərini təklif edir.

İnformasiyalaşdırma, şaxələndirmə, qloballaşma kimi proseslərlə müəyyənləşən hazırkı şəraitdə muzeyə çevriləcək obyektləri təkcə tarixi-mədəni əhəmiyyət kəsb edən müəssissə kimi qiymətləndirmək olmaz. Müasir kulturoloji paradiqma muzeyin mənəvi təcrübəsinin ötürülməsində mühüm əhəmiyyət kəsb etdiyini qəbul edən YUNESKO-nun Beynəlxalq Muzeylər Şurası (İCOM) tərəfindən elan edilmiş bir sosial-mədəni institut kimi muzeyin fəaliyyətinin dərk edilməsinin zəruriliyini təsdiq edir.

Tamaşaçıların fəal fəaliyyətə cəlb edilməsi, mədəni və maarifləndirici muzey proqramları özünüdərk, tarixi təfəkkür, özünüidentifikasiya, habelə xarici

dünya ilə məhsuldar qarşılıqlı əlaqə, onun problemlərinin qavranılması və mümkün yolların axtarışının formalaşmasına kömək edir, onları həll edir. Beləliklə, qloballaşma şəraitində "öz mühakimə və qiymətləndirmələrinin formalaşdırılması üçün biliklərin əldə edilməsinə kömək edən yeni tipli muzey"in yaranması tendensiyası mövcuddur.

Muzey "insanın sosial-mədəni və şəxsi adaptasiyası ilə bağlı problemlərin kəskinləşdiyi" qloballaşma şəraitində maddi və mənəvi təcrübəni yayımlamaqla məhsuldar sosial-mədəni uyğunlaşma üçün şərait yaradır. Bu məsələlərin həllində muzeyin onun özünəməxsus xüsusiyyətləri ilə bağlıdır ki, bunlardan ən əsası eksponatların həqiqiliyi, cəmiyyət üçün açıqlığı və ümumi əlçatanlığıdır, habelə öz fəaliyyətinin cəmiyyətin mədəni tələbatları ilə əlaqəsidir (3; s.98).

Müasir sosial-mədəni sferada muzeyin müsbət potensialının reallaşmasına mane olan bir sıra problemlər vardır. Muzeyin sosial əhəmiyyətli missiyası ilə muzeyin sosial mədəni sahəsinin kulturoloji əsasları kifayət qədər nəzəri cəhətdən işlənməmişdir. Əlilliyi olan şəxslərin də sosial mədəni adaptasiyasında muzeylərin potensialı yüksəkdir. 1975-ci il BMT-nin Əlillərin Hüquqları Bəyannaməsində əlilliyi olan şəxs, fiziki və ya əldə edilmiş qabiliyyətlərinin qeyri-kafi olması səbəbindən gündəlik şəxsi və ya ictimai həyatın ehtiyaclarını tam və ya qismən ala bilməyən bir şəxs olaraq təyin edilir (bu anadangəlmə və ya qazanılma əlillik ola bilər) (4). Dünyada bir çox beynəlxalq təşkilatlar tərəfindən əlillərin cəmiyyətə inteqrasiyası üçün bir sıra tədbirlər görülmüşdür. Dövrümüzdə əlilliyi olan şəxslərin mədəni istirahətlərini təmin etməkdə və onların sosial-mədəni adaptasiyasında muzeylər böyük üstünlüklərə sahibdirlər. Muzeylərdə müxtəlif inklüziv proqramların, innovasiyaların tətbiqi ilə muzeyləri əlilliyi olan şəxslər üçün əlçatan etmək mümkündür.

Beləliklə, müasir muzeyin funksiyalarının transformasiyası prosesi muzeyşünaslığın predmet sahəsinin araşdırır və muzeyin inkişafı üçün yeni yollar açır. Muzeylərin cəmiyyətin inkişaf tendensiyalarına uyğun olaraq inkişaf etməsi, həmçinin muzeyə ziyarətə gələn müxtəlif kateqoriyalı əlilliyi olan şəxslərin tələbatlarını nəzərə alması və buna uyğun olaraq müxtəlif tipli innovativ proqramlardan istifadəsi vacibdir (5).

**Ədəbiyyat siyahısı:**

1.Əmirxanov Sabir Abuzər oğlu. Azərbaycanda muzeyşünaslığın aktual problemləri. Bakı: Bakı Biznes Universiteti, 2011, 570 s.

2.Флиер А.Я.Культурология для культурологов: Учебное пособие для магистрантов и аспирантов, докторантов и соискателей, а также преподавателей культурологии. — М: Академический Проект, 2000. — 496 с

3.Фролов Иван Тимофеевич // Большая советская энциклопедия: [в 30 т.] / под ред. А. М. Прохорова — 3-е изд. — М.: Советская энциклопедия, 1969.

4.Əlillərin Hüquqları haqqında Bəyannamə 9 dekabr 1975-ci il Qərarlar.

5.http://www.e-qanun.az/framework/39591

**Гюнай Вердиева**

## СОВРЕМЕННЫЕ ТРАНСФОРМАЦИИ СОЦИАЛЬНО-КУЛЬТУРНЫХ ФУНКЦИЙ МУЗЕЯ

**Резюме:** В статье изложен социально-культурный потенциал музея, основные направления, вызывающие изменения в музейной среде, а также трансформация функций музея как социально-культурного учреждения. Музей является важным общественным достоянием, это место определяется социокультурным смыслом, который является символом культуры разных взглядов, разных взглядов.

**Ключевые слова**: музей, музееведение, социокультурная адаптация, инвалиды, трансформация.

**Gunay Verdiyeva**

## MODERN TRANSFORMATIONS OF MUSEUMS' SOCIAL-CULTURAL FUNCTIONS

**Summary:** The article comments on the socio-cultural potential of the museum, the main directions that lead to changes in the museum environment, as well as the transformation of the museum's functions as a socio-cultural institution. The museum is an important public institution, defined by a socio-cultural meaning that is a symbol of the culture of different views.

**Key words**: museum, museology, socio-cultural adaptation, persons with disabilities, transformations.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10. 01. 2022**

**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 02. 02. 2022**

**Məqalənin çapa qəbul olunma tarixi:13. 02. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova**